

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 216 (21.117)

13 noyabr 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Noyabrın 12-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin rəsmi qarşılanma mərasimi olub.

Rəsmi qarşılanma mərasimi başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

* * *

Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin təkbətək görüşü olub.

Görüşdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Bu səfərin ikitərəfli əlaqələrimizin daha da möhkəmləndirilməsi, iqtisadi əməkdaşlığımızın genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik bildirildi.

* * *

Noyabrın 12-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin iştirakı ilə Azərbaycan-İran sənədlərinin imzalanması mərasimi olub.



## Muxtar respublikada payızlıq taxıl əkini davam etdirilir





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilən "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın uğurlu icrası muxtar respublikada əkinçiliyin inkişafına da öz təsirini göstərmişdir. Son illər dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi, o cümlədən torpaq mülkiyyətçilərinə maliyyə və texniki dəstəyin göstərilməsi kənd təsərrüfatı məhsullarının istehsalını xeyli artırmışdır. Əsas strateji məhsul hesab olunan taxıl əkininin genişləndirilməsi, əhalinin çörək və un məmulatlarına olan tələbatının ödənilməsi də bu baxımdan mühüm əhəmiyyət daşıyır.

Noyabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Bərəkət" Toxumçuluq Təsərrüfatının taxıl sahəsinə gəlmiş, taxıl əkininin gedişi ilə maraqlanmışdır.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev payızlıq taxıl əkininin gedişi barədə məlumat vermişdir. Qeyd olunmuşdur ki, artıq bir neçə gündür, muxtar respublikada payızlıq taxıl əkini həyata keçirilir. Bu günədək 10 min hektar sahədə şum aparılmışdır. Şum aparılan ərazinin 5600 hektarında buğda, 1400 hektarında isə arpa əkilmişdir. Taxıl əkini şırım üsulu ilə aparılır və hər hektara 180 kiloqram olmaqla buğda toxumu əkilir. Şırım üsulunun tətbiqi məhsuldarlığı yüksəldir, suvarma suyundan qənaətlə istifadəyə və torpaqların şoranlaşmasının qarşısının alınmasına imkan yaradır.

Bildirilmişdir ki, "Bərəkət" Toxumçuluq Təsərrüfatı üçün ayrılan sahə 2 min hektardır. Əkin zamanı yerli iqlim şəraitinə uyğun yüksək reproduksiyalı "Quality" toxum sortundan istifadə olunur. Əkinə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin texnikaları cəlb olunmuşdur. Texnikanın gücündən səmərəli istifadə olunması səpin işlərinin optimal müddətdə başa çatdırılmasına imkan verəcəkdir.

Ərazinin su təminatı Araz çayından qidalanan "Azərbaycan" nasos stansiyası vasitəsilə ödənilir. Bu məqsədlə nasos stansiyasından təzyiqli boru xətti çəkilmiş, supaylayıcı hovuz tikilmişdir. Supaylayıcı hovuzdan su öz axımı ilə əkin sahələrinə verilir. Bu il supaylayıcı hovuzdan 3 min metr uzunluğunda özüaxımlı boru xətti çəkilmiş, boru xəttinin üzərində 6 suburaxıcı qoyulmuşdur. Yeni çəkilən boru xəttinin su sərfi saniyədə 800 litrdir.

Ali Məclisin Sədri gələcəkdə əkin sahələrində qapalı suvarma şəbəkəsinin qurulması, payızlıq taxıl əkininin vaxtında başa çatdırılması, yaz əkin mövsümündə "Bərəkət" Toxumçuluq Təsərrüfatının sahələrində arpa əkilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Sosial rifahın təminatında aktiv məşğulluq tədbirləri xüsusi əhəmiyyət daşıyır

***Əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi muxtar respublikada həyata keçirilən sosial siyasətin tərkib hissəsidir. Əmək ehtiyatlarından daha səmərəli istifadə edərək əhalinin məşğulluğunu təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələr uğurla icra olunur. Dövlət proqramının aktiv məşğulluq tədbirləri üzrə bəndinin icrasına uyğun olaraq, əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə muxtar respublikada əmək bazarının tələbləri nəzərə alınmaqla əmək yarmarkaları təşkil edilir.***

Məşğulluq xidməti orqanları muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlardan boş iş yerləri haqqında topladıqları məlumatları əmək yarmarkalarında işaxtaranlara təqdim edirlər. Nəticədə, işaxtaranlar onlar üçün yaradılmış mövcud imkanlardan səmərəli istifadə edərək öz peşə və ixtisaslarına uyğun işlə təminolunma imkanı əldə edir, eyni zamanda işəgötürənlər işaxtaranlarla qarşılıqlı ünsiyyətdə olduqlarından onlar qısa vaxt ərzində ixtisaslı, təcrübəli kadr seçmək imkanı əldə edirlər.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətindən aldığımız məlumata görə, cari ilin ötən 10 ayı ərzində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən Naxçıvan şəhərində və rayon mərkəzlərində 4 dəfə əmək yarmarkaları təşkil edilib. Əmək yarmarkalarına, ümumilikdə, 263 müəssisə və təşkilat tərəfindən 2030 boş iş yeri çıxarılıb. Keçirilən əmək yarmarkalarında 943 nəfər peşə və ixtisasına uyğun işlə təmin edilib, 9 nəfər peşə hazırlığına, 30 nəfər isə ictimai işlərə cəlb olunub. Sosial cəhətdən həssas əhali qruplarının məşğulluğunun təmin olunması da dövlət proqramının əsas tələblərindən biridir. Qeyd olunan dövr ərzində sosial müdafiəyə xüsusi ehtiyacı olan 22 nəfərin kvota yerinə göndərilməsi təmin edilib.

Gənclərin və qadınların işlə təmin olunması da diqqət mərkəzindədir. Belə ki, əmək yarmarkaları vasitəsilə işlə təmin olunanların 113 nəfərini qadınlar, 330 nəfərini isə gənclər təşkil edib.

Muxtar respublikada təhsil və səhiyyə işçiləri üçün təşkil olunan əmək yarmarkalarında pedaqoji və tibbi kadrların peşə və ixtisaslarına uyğun daimi işlə təmin olunmalarına imkanlar yaranır.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi üzrə hər il təşkil olunan əmək yarmarkasında onlarla müəllim muxtar respublikanın ümumtəhsil məktəblərində ixtisaslarına uyğun işlə təmin olunub. Cari ilin avqust ayında keçirilən növbəti təhsil yarmarkasında 93 pedaqoji kadra muxtar respublikanın müxtəlif təhsil ocaqlarında işləmək üçün göndəriş verilib.

Muxtar respublikada yeni-yeni səhiyyə obyektlərinin istifadəyə verilməsi tibb sahəsi üzrə kadrların işlə təmin olunmasına əsaslı zəmin yaradıb. Bu ilin sentyabr ayında səhiyyə işçiləri üçün keçirilmiş əmək yarmarkasında 11 nəfər münasib işlə təmin olunub.

Nazirlikdən onu da bildirdilər ki, məşğulluq mərkəzləri tərəfindən tətil günlərində işləmək arzusunda olan tələbələrin xüsusi peşə hazırlığı tələb etməyən haqqıödənilən ictimai işlərə, həmçinin mövsümi və digər müvəqqəti xarakterli işlərə göndərilməsi də təmin edilib. Belə ki, Naxçıvan Dövlət Universitetinin 21 tələbəsi öz ixtisaslarına uyğun sahələrə, 5 nəfər tələbə isə digər müvəqqəti xarakterli işlərə göndərilib.

Muxtar respublikada həyata keçirilən səmərəli məşğulluq siyasətinin məntiqi nəticəsidir ki, cari ilin ötən dövrü ərzində məşğulluq xidməti orqanlarında işsizlik statusu alan olmayıb.

Çevik məşğulluq tədbirlərinin davamlı olaraq həyata keçirilməsi əhalinin məşğulluğunun təmin olunmasına, onların sosial rifahının daha da yaxşılaşmasına geniş imkanlar açır.

***Naxçıvan şəhərinin Qaraçuq kəndində bir neçə obyektin tikintisi aparılır. Obyektlərdən biri kənd tam orta məktəbi üçün müasirtipli layihə əsasında inşa olunan binadır. Yeni bina 630 şagird yerlikdir. Müəllim və şagirdlərin ixtiyarına 38 sinif otağı, 4 elektron lövhəli sinif və 4 kompüter sinfi, hərbi kabinə, kitabxana, fizika, kimya, biologiya laboratoriyaları, idman zalı veriləcək.***

## Qaraçuq müasirləşmə yolunda olan yaşayış məntəqəsidir

Orta məktəb binası ilə yanaşı, inşa edilən digər obyekt musiqi məktəbi üçün nəzərdə tutulub. Bu təhsil ocağında 18 sinif otağı, iclas zalı, solfecio sinfi, musiqi ədəbiyyatı otağı, kitabxana və digər yardımçı otaqlar olacaq.

Digər bir obyekt kənddə fəaliyyət göstərən qurumların birgə işini təşkil etmək üçün inşa olunan kənd mərkəzidir. İnşaatçılar qısa müddət ərzində 2 mərtəbədən ibarət olan, müasirtipli layihə əsasında inşa edilən binada bir çox işləri başa çatdırıblar.

Qaraçuq kəndində daha bir quruculuq tədbiri iki mərtəbədən ibarət həkim ambulatoriyasının inşa edilməsidir.

Kənd sakinləri kənddə inşa olunan xidmət mərkəzini onlara göstərilən növbəti dövlət qayğısı kimi dəyərləndirirlər.

**Xəbərlər şöbəsi**


Babək rayonunun Qahab kəndi


Şahbuz rayonunun Sələsüz kəndi


Şərur rayonunun Diyadin kəndi

# Kəndlərin inkişafında Naxçıvan Muxtar Respublikasının əldə etdiyi təcrübə nümunə gücündədir

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətt bu gün ölkəmizə inkişaf və tərəqqi bəxş edir. Son 19 ildə muxtar respublikada həyata keçirilən tədbirlər də bu siyasi xəttə sədaqətin bəhrəsidir. Heç kəsə sirr deyil ki, bu gün qədim Naxçıvanın bütün şəhər, qəsəbə və kəndləri müasir yaşayış məntəqələrinə çevrilib. Muxtar respublikanın hətta ucqar dağ kəndlərində də möhtəşəm quruculuq işləri aparılır və bu, Azərbaycan dövlətinin iqtisadi qüdrətinin göstəricisidir. Naxçıvandakı quruculuq işləri sırasında ən çox diqqəti cəlb edən isə kəndlərin abadlaşdırılmasıdır. Sistemli və düşünülmüş şəkildə aparılan bu işlərin əsas məqsədi, təbii ki, kənd sakinlərinin rahat, firavan yaşayışını təmin etmək, necə deyərlər, kəndlə inkişaf etmiş şəhər arasındakı fərqi aradan qaldırmaqdır.

Kəndlərdə inşa olunan obyektlərdən məzmun və mahiyyətcə yeni olanı kənd mərkəzləridir. Belə ki, bu mərkəzlər yaradılmamışdan əvvəl kəndlərdə fəaliyyət göstərən ayrı-ayrı qurumlar yaşayış məntəqəsinin müxtəlif yerlərində, köhnə, uyğunlaşdırılmış binalarda yerləşirdi. Əhalisi çox olan kəndlərdə mövcud vəziyyət insanların çətinliklərlə qarşılaşmasına səbəb olurdu. Əhali müəyyən yerli məsələlərin həlli üçün xeyli vaxt sərf edirdi. Kənd mərkəzləri yaradıldıqdan sonra vəziyyət müsbətə doğru dəyişdi: bütün yerli dövlət qurumlarının hamısı bir mərkəzdə yerləşdirildi, fəaliyyətlərinin səmərəli təşkili üçün şərait yaradıldı. Artıq kənd sakinləri müəyyən problemin həlli üçün müxtəlif yerlərdə olan təşkilatlara müraciət etmək çətinliyi ilə qarşılaşmır, bir binaya üz tutmaqla bir neçə məsələnin yerindəcə həllinə nail olurlar. Bu gün Naxçıvan Muxtar Respublikasının kəndlərində insanların saatlarla vaxt itkisinə yol verərək rayon mərkəzlərinə getmək kimi bir problemi də artıq, birmənalı şəkildə, öz həllini tapıb. Həlli mümkün olan bütün məsələlər kənd mərkəzlərində olan təşkilatlar tərəfindən yoluna qoyulur. Bununla insanların rahatlığı təmin olunur, işin keyfiyyəti yüksəlir.

Bu, Azərbaycan Prezidenti cənab İlham Əliyevin müvafiq tapşırıq və tövsiyələrinin Naxçıvan Muxtar Respublikasında dərhal və təxirə salınmadan yerinə yetirildiyinin bariz nümunəsidir. Ölkə başçımız demişdir: ***“Dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşıdır. Siyasət Azərbaycan vətəndaşının sosial rifahının, təhlükəsiz yaşayışının təmin edilməsinə xidmət etməlidir. Hər şeyi biz Azərbaycan vətəndaşı üçün edirik. Budur bizim məqsədimiz”.***

Bu gün dünya elə bir mərhələyə qədəm qoyub ki, bu mərhələdə rifah halının davamlı yüksəldilməsi, rahat yaşayışın təmin olunması ən aktual məsələlərdən biri kimi qarşımıza çıxır. Bu, sabitliyin və inkişafın tam təmin olunduğu ölkələrin əhalisi üçün xarakterik olan ümumi haldır. Özünün yüksəliş, intibah dövrünü yaşayan Azərbaycanda, onun Naxçıvan Muxtar Respublikasında əhalinin ehtiyaclarının qarşılanması, insanların problemlərinin həlli istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilir, dövlət proqramları reallaşdırılır. Bu tədbirlər sırasında Naxçıvanda yeni kənd mərkəzləri ilə yanaşı, xidmət mərkəzləri, tibb ocaqları, məktəb binalarının tikintisi xüsusi əhəmiyyətə malikdir.

Bu barədə danışan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Ölkəmizdə kəndlərin inkişafına və abadlaşmasına xüsusi diqqət göstərilir, əhalinin məskunlaşması və rahat yaşayışının təmin olunması üçün lazımi tədbirlər həyata keçirilir. Bu iş muxtar respublikada da davam etdirilir, kəndlərdə müasir infrastruktur yaradılır, yeni kənd və xidmət mərkəzləri, tibb ocaqları, məktəb binaları tikilərək istifadəyə verilir. Bu da dövlət qurumlarının fəaliyyətinin normal təşkilinə, sakinlərin müraciətlərinin vaxtlı-vaxtında həllinə, əhaliyə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsinə, şagirdlərin hərtərəfli təhsil almasına və insanların tibbi xidmətlə təmin olunmasına imkan verir. Eyni zamanda muxtar respublikanın müasirləşən kəndlərində əhalinin sosial-məişət problemlərinin həllinə də diqqət yetirilir, mənzillər telefonlaşdırılır, elektrik enerjisinin və təbii qazın fasiləsiz verilişi təmin edilir”.***

Muxtar respublikada kəndlərdə qurulan digər bir mühüm obyektlərdən biri kimi diqqəti cəlb edən xidmət mərkəzlərində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları vardır. Ekoloji və sanitar qaydalara cavab verən mağazalarda ərzaq məhsullarının, gündəlik tələbat mallarının, eyni zamanda geyim dəstlərinin, məktəbli formalarının və təsərrüfat mallarının satışı təşkil olunur. Onu da xüsusi qeyd edək ki, yaradılan şərait gündəlik ərzaq və sənaye mallarına olan tələbatın kəndin özündə ödənməsinə imkan verir.

Muxtar respublikada yüksək səviyyəli inkişaf strategiyasının mühüm elementlərindən biri kimi qiymətləndirilən kənd mərkəzləri, eyni zamanda xidmət mərkəzləri layihəsinin uğurla reallaşdırılması və əldə olunan nəticələr dünyanın bir sıra ölkələri üçün də nümunə təşkil edir. Məsələnin mahiyyətinə varmaq üçün bəzi məqamlara diqqəti cəlb etmək istərdik. Heç kəsə sirr deyil ki, bu gün bütün dünyada kəndlərdən şəhərlərə doğru bir axın var. Bəzi ölkələr bu problemlə daha çox qarşılaşır və onun həllinə nail ola bilmirlər. Nəticədə, həmin ölkələrin mərkəzi şəhərlərində əhalinin sıxlığı müşahidə olunur. Bu isə özü ilə bərabər bir sıra ciddi problemlər meydana gətirir, kənd təsərrüfatı sahəsi iflic vəziyyətinə düşür.

Naxçıvan Muxtar Respublikasına nəzər yetirdikdə tamamilə başqa bir mənzərənin şahidi oluruq: muxtar respublikada 5 şəhər olduğu halda burada əhalinin 70 faizi kəndlərdə yaşayır. Bu, onu göstərir ki, ötən illər ərzində qədim diyarın kəndlərində əhalinin məşğulluğu təmin edilib, yaşayış şəraiti yaxşılaşdırılıb, bir sıra problemlər öz həllini tapıb. Bu problemlərin həllində muxtar respublika rəhbərinin diqqət və qayğısı ilə kəndlərdə qurulan infrastruktur, kənd mərkəzləri, xidmət mərkəzləri də xüsusi rol oynayıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qeyd etdiyi kimi, kəndlə şəhər arasındakı fərqin aradan qaldırılması aparılan abadlıq-quruculuq işlərindən, yaradılan müasir infrastrukturdan asılıdır. Belə ki, kəndlərin tamamilə qazlaşdırılması, elektrik enerjisinin fasiləsiz verilməsi, internetdən istifadə, televiziya yayımlarının həyata keçirilməsi insanların rahat yaşayışına və əhalinin daha sıx məskunlaşmasına səbəb olur.

Bu gün muxtar respublikanın kəndlərində təhsilin səviyyəsinin yüksəldilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikasında onlarla müasir məktəb binaları tikilərək istifadəyə verilib. Burada şagirdlərin müasir dövrün tələbləri səviyyəsində təhsil almaları üçün hər cür şərait yaradılıb. Ali Məclisin Sədri dəfələrlə qeyd edib ki, təhsil hər bir ölkənin həyatında vacib sahədir. Ona görə də ölkənin gələcəyini təmin etmək üçün vətənpərvər və təhsilli gənclik yetişdirmək lazımdır. Bu gün ölkəmizdə gənclərin təhsil alması üçün lazımi şərait yaradılır, bu sahəyə hərtərəfli dövlət qayğısı göstərilir. Yaradılan şərait isə qarşıya mühüm vəzifələr qoyur. Bu gün məktəblərin üzərinə düşən əsas vəzifə təhsil verməklə yanaşı, həm də gənclərimizə müstəqil qərarlar qəbul etməyi öyrətməkdir. Çünki hər bir gənc qabiliyyətinə və həvəsinə görə ixtisas seçir, gələcək həyatını bu ixtisaslara dərindən yiyələnməklə qurur.

Muxtar respublikanın kəndlərində istifadəyə verilən obyektlər kənd, xidmət mərkəzləri, məktəb binaları ilə yekunlaşmır. Əhalinin sağlamlığının qorunması və tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması üçün kəndlərdə həkim ambulatoriyaları da müasir dövrün tələbləri səviyyəsində tikilib istifadəyə verilir. Muxtar respublikanın kəndlərində səhiyyə ocaqlarının tikilməsi və əhalinin lazımi tibbi xidmətlərlə təmin olunması insanların rahat həyat şəraitinin təmin olunması istiqamətində görülən işlərin tərkib hissəsidir.

***Sonda qeyd etmək yerinə düşər ki, ölkəmizdə həyata keçirilən Heydər Əliyev siyasi xəttinin əsasında məhz insan amili dayanır. Bu gün Naxçıvan Muxtar Respublikasının şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərində də müasir binaların inşa olunması, abad yolların istifadəyə verilməsi bu siyasi xəttə sədaqətin bariz nümunəsidir. Görülən genişmiqyaslı işlər isə kənd sakinlərinin torpağa bağlılığını, onların qurub-yaratmaq əzmini daha da artırır, insanların firavan yaşayışını təmin edir.***

**Rauf ƏLİYEV**

***Muxtar respublikamızda iqtisadiyyatın dinamik inkişafı, istehsalatda müasir texnologiyaların tətbiqi, yeni infrastruktur layihələrin icrası nəticəsində ixtisaslı kadrlara olan tələbat ildən-ilə artmaqdadır. Buna görə də təhsilin bütün pillələri kimi, peşə təhsilinin inkişafı da diqqət mərkəzində saxlanılır. Bu baxımdan muxtar respublikada əmək bazarının tənzimlənməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” mühüm əhəmiyyət daşıyır. Dövlət proqramının icrası ilə əlaqədar rəqabətqabiliyyətli ixtisaslar üzrə peşə hazırlığının təşkili, peşə standartlarının tətbiqi və peşə seçiminə köməklik məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.***

# Peşə təhsili səmərəli məşğulluğu təmin edir

Dövlət proqramına əsasən, 2014-cü ilin 10 ayı ərzində aid təşkilatlar qarşısında qoyulmuş vəzifələr uğurla icra edilmişdir. Belə ki, peşə hazırlığının səmərəliliyini yüksəltmək, peşə sahələrinə uyğun tələbatın müəyyənləşdirilməsi məqsədilə rübdə bir dəfə olmaqla, ümumilikdə, 332 dövlət və özəl müəssisədə sorğular keçirilmiş, işaxtaranlar əvvəlki peşə, ixtisas və iş təcrübəsi, peşə meyilləri, bacarıq və vərdişləri nəzərə alınmaqla kurslara cəlb olunmuşlar. Dövlət Məşğulluq Xidmətinin internet saytında, eləcə də kütləvi informasiya vasitələrində əmək bazarının tələblərinə uyğun təşkil olunan peşə kursları haqqında məlumatlar təqdim olunmuşdur.

Ötən müddət ərzində şəhər və rayon məşğulluq mərkəzləri tərəfindən muxtar respublikanın bütün ümumtəhsil məktəblərində yuxarı sinif şagirdlərinin gələcəkdə düzgün peşə seçiminə köməklik məqsədilə peşəyönümlü məşğələlər təşkil edilmişdir. Məşğələlərdə əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar, onların gələcək perspektivləri haqqında ətraflı məlumatlar verilmiş və sorğular keçirilmişdir. 2014-2015-ci tədris ilində 4 peşə təhsili müəssisəsi üzrə 444 şagird qəbulu həyata keçirilmişdir. Bu tədris ilində peşə təhsili müəssisələrində, ümumilikdə, 19 ixtisas üzrə 534 müdavim təhsil alır ki, onların təlim-tərbiyəsi ilə 53 müəllim və istehsalat təlimi ustası məşğul olur. Eyni zamanda bu il Naxçıvan Şəhər Peşə Liseyində yeni “arıçı” peşə kursu da açılmış və 12 müdavim həmin kursa qəbul edilmişdir. Qeyd olunan dövr ərzində Naxçıvan Regional Peşə Tədris Mərkəzində “bərbər”, “qadın bərbəri”, “ofisiant”, “aşpaz köməkçisi”, “dərzi”, “qazanxana maşinisti”, “traktorçu-maşınçı”, “elektrik montyoru”, “kabel lehimləyicisi və elektrik montyoru”, “qaz təsərrüfatının istismarı və təmiri üzrə nəzarətçi-çilingər”, kütləvi informasiya vasitələrində çalışan kadrların təcrübə və peşəkarlıqlarının artırılması məqsədilə “kinooperator”, “televiziya rejissorluğu”, “telearparıcı” peşələri üzrə təlim kursları təşkil edilmiş, kursları müvəffəqiyyətlə başa vuran müdavimlərin müvafiq peşə sahələri üzrə işlə təmin olunması diqqət mərkəzində saxlanılmışdır. Həmçinin bu dövr ərzində sağlamlıq imkanları məhdud və cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin sosial reabilitasiyası məqsədilə də kurslar təşkil edilmiş, 21 nəfər peşə kurslarına cəlb edilmişdir.

Muxtar respublikada milli dəyərlərimizin qorunması və yaşadılmasına böyük diqqət və qayğı göstərilir. Xalq sənətkarlığı nümunələrinin incəliklərini öyrənmək və yaşatmaq məqsədilə “xalçaçı”, “misgər” və “ağac üzərində oyma” peşələri üzrə kursların təşkil olunması qeyd olunanların əyani ifadəsidir.

İqtisadiyyatın müxtəlif sahələrində istifadə edilən müasir maşın-mexanizmlərin təhsilli və ixtisaslı kadrlar tərəfindən idarə olunması məqsədilə ötən dövr ərzində müvafiq işlər görülmüş, Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbi Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Bu da məktəbdə tədrisin keyfiyyətinin yüksəldilməsinə, təlimlərin səmərəli təşkili və yüksəkixtisaslı kadrların hazırlanmasına geniş imkanlar açmışdır. 2014-cü ilin 10 ayı ərzində Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbində “sürücülük” peşəsi üzrə 2100 müdavim kurslara qəbul edilmiş, onlardan 2074 nəfəri şəhadətnamə almışdır. Hazırda məktəbdə 390 müdavim təhsilini davam etdirir.

Bu il “Bilik Günü”ndə Şərur Texniki-Peşə və Sürücülük Məktəbinin istifadəyə verilməsi tələbata uyğun kadr hazırlığı imkanlarının daha da genişləndirilməsinə səbəb olmuşdur. İlk mərhələdə məktəbdə 11 ixtisas üzrə 220 müdavim kurslara cəlb olunmuşdur. Oktyabr ayında Şərur Texniki-Peşə və Sürücülük Məktəbində “qazanxana maşinisti” ixtisası üzrə təhsil alan 20 müdavimdən 18-i şəhadətnamə alaraq iş yerlərinə göndərilmişdir. Bundan başqa, məktəbdə “qazanxana maşinisti” və “sürücülük” ixtisasları üzrə yeni peşə kursları açılmış və 35 müdavim həmin kurslara cəlb olunmuşdur.

Sürətlə inkişaf edən qabaqcıl texnologiyalardan istifadə, həmçinin bazar iqtisadiyyatı ilə əlaqədar “kommersiya agenti”, “menecment”, “ofisiant”, “turizm bələdçisi”, “kompüter operatoru” və sair ixtisaslara uyğun texniki-peşə təhsili şəbəkəsinin genişləndirilməsi və maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Peşə tədrisi məktəblərində təhsil alan müdavimlərin nəzəri biliklərinin praktika yolu ilə inkişaf etdirilməsi də vacib şərtdir. Bu məqsədlə hər bir ixtisasa uyğun istehsalat sahəsi ilə təhsil müəssisələri arasında müqavilələr bağlanılmış, müdavimlər istehsalat təlimi ustalarının nəzarəti altında təcrübə keçmişlər.

***Yeni inkişaf mərhələsini yaşayan muxtar respublikamızın bütün sahələrində müxtəlif peşə ixtisaslı kadrlara olan tələbatın təmin edilməsi, həmçinin işaxtaran vətəndaşların iqtisadi fəallığını yüksəltmək məqsədilə peşə hazırlığı istiqamətində fəaliyyət bundan sonra da davam etdiriləcək.***

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## “Ulu yurdum – Naxçıvanım” müəllif mahnıları yaradıcılıq müsabiqəsinin yekun mərhələsi keçirilib





***Noyabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurası, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı və Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Filarmoniyasında Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş “Ulu yurdum – Naxçıvanım” müəllif mahnıları yaradıcılıq müsabiqəsinin yekun mərhələsi keçirilib.***

Müsabiqənin yekun mərhələsinin açılış mərasimində çıxış edən münsiflər heyətinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov bildirib ki, 2014-cü il Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən muxtar respublikada “Muxtariyyət ili” elan olunub. Azərbaycan Respublikasının Prezidenti “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında” 2014-cü il yanvarın 14-də Sərəncam imzalayıb. Həmin Sərəncamın icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 yanvar tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı” təsdiq olunub. Tədbirlər planına uyğun olaraq, 2014-cü ildə muxtar respublikamızın 90 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilir. Belə tədbirlərdən biri də Naxçıvana həsr olunmuş yeni müəllif mahnıları yaradıcılıq müsabiqəsidir.

Muxtar respublikada musiqi mədəniyyətinin zənginləşməsi və inkişafı istiqamətində görülən ardıcıl və davamlı tədbirlərdən də söz açan Rəhman Məmmədov qeyd edib ki, bu gün muxtar respublikada bəstəkar və musiqişünasların fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Artıq naxçıvanlı bəstəkarların əsərləri, simfonik və kamera musiqisi böyük konsert salonlarında səsləndirilir. Yaradılan şərait bəstəkarlarımızı yeni əsərlər yaratmağa ruhlandırıb. Son illər Naxçıvan bəstəkarlarının qazandıqları uğurlar, muxtar respublikada gənc musiqiçilərin yetişməsi istiqamətində həyata keçirilən tədbirlər və yaradılan şərait Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən mədəniyyətin, o cümlədən musiqinin inkişafına göstərilən yüksək qayğının nəticəsidir. Muxtar respublikada musiqi mədəniyyətinin mövcud inkişafı və bu sahədə formalaşdırılan zəruri baza Naxçıvana həsr olunmuş yeni müəllif mahnılarının yaradıcılıq müsabiqəsinin keçirilməsinə əlverişli şərait yaradıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri bildirib ki, müsabiqənin keçirilməsi üçün təşkilat komitəsi yaradılıb, yaş məhdudiyyəti qoyulmadan peşəkar bəstəkarlarla yanaşı, həvəskar bəstəkarların da iştirakı üçün şərait yaradılıb. Mahnılar klavir və ya partitura formasında müsabiqəyə təqdim edilib, təşkilat komitəsi tərəfindən mahnıların ifası üçün musiqi kollektivi müəyyənləşdirilib.

Vurğulanıb ki, “Ulu yurdum – Naxçıvanım” müəllif mahnıları yaradıcılıq müsabiqəsinin qalibinin müəyyənləşdirilməsi məqsədilə 5 nəfərdən ibarət münsiflər heyəti yaradılıb. Təşkilat komitəsinin verdiyi məlumata görə, müsabiqəyə Naxçıvana həsr olunmuş 8 yeni müəllif mahnısı təqdim olunub. Müsabiqənin tam obyektiv keçirilməsi üçün ifa olunan mahnıların müəlliflərinin adlarının elan olunmaması qərara alınıb. Münsiflər heyəti ardıcıllıqla ifa edilən mahnıları qiymətləndirərək qaliblərı müəyyənləşdirəcəkdir. Birinci yerin qalibi 500 manat, II yerin qalibi 300 manat, III yerin sahibi isə 200 manat məbləğində pul mükafatı və diplomla mükafatlandırılacaqdır. Digər iştirakçılar üçün isə həvəsləndirici diplomlar nəzərdə tutulub.

Sonra “Ulu yurdum – Naxçıvanım” müəllif mahnıları yaradıcılıq müsabiqəsinin yekun mərhələsinə başlanılıb.

Tamaşaçıların alqış sədaları altında keçən müsabiqədə birinci yerə Yaşar Xəlilovun bəstələdiyi “Naxçıvanım”, ikinci yerə Vidadi Heydərovun “Naxçıvan”, üçüncü yerə isə Elman Əliyevin “Bura can evidir Azərbaycanın” mahnıları layiq görülüb.

Mükafatların təqdimat mərasimində digər iştirakçılara həvəsləndirici diplomlar verilib.

**Xəbərlər şöbəsi**

## Nəticələr gələcəyə optimist baxmağa əsas verir

### *Şahlar Əsgərov: İndi Naxçıvan Şərqin Qərbə açılan pəncərəsi və ya Azərbaycanın Qərbə açılan qapısıdır*

***Bu günlərdə Bakı Dövlət Universitetinin professoru, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü Şahlar Əsgərov Naxçıvan Dövlət Universitetində olub. Şahlar müəllimlə söhbətimiz bu haqdadır:***







*– Şahlar müəllim, Naxçıvanda sizin “Kamilləşən düşüncə” kitabınızın təqdimatı keçirilib. Bu təqdimat necə keçdi?*

– Mən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, çox hörmətli Vasif Talıbovun dəvəti ilə oktyabrın 27-dən 31-nə qədər Naxçıvan şəhərində oldum. Muxtar respublikaya səfərim çərçivəsində “Kamilləşən düşüncə” kitabımın təqdimat mərasimi keçirildi. Eyni zamanda həmin günlər ərzində Naxçıvan Dövlət Universitetində mühazirələr oxudum.

Öncə kitab haqqında qısa məlumat verim. Kitabda bir sıra sosial-iqtisadi hadisələrin mahiyyətinə və inkişafına yeni meyar vasitəsilə baxılıb. Meyar olaraq uğurun onun qıtlığına olan nisbəti götürülüb. Bu meyar “kamilləşmə faktoru” adlanır və bu faktorun köməkliyi ilə bəzi sosial-iqtisadi göstəricilər cədvəl şəklində yox, ilk dəfə olaraq qrafik şəklində təqdim edilib. Bu metodologiya həm planetin, həm də istənilən dövlətin inkişafının dinamikasını izləməyə, ona nəzarət etməyə, yeni nəticələr almağa imkan verir. Misal üçün, yeni meyar vasitəsilə bəşər tarixinə yeni bucaq altında baxılıb və bu tarix iki dövrə bölünüb. Göstərilib ki, birinci tarixi dövrdə bütün proseslər şəxsi mənafenin, fiziki gücün və instinkt düşüncənin, ikinci dövrdə isə ictimai mənafenin, əqli gücün və şüurun üstünlüyü şəraitində baş verir. Nəticələr gələcəyə optimist baxmağa əsas verir. Kitabda 160-dan çox dövlətin sosial, iqtisadi və mədəni inkişafı təhlil edilib. Misal üçün, 2012-ci il üçün doğma Azərbaycanımızın göstəriciləri belədir: İnsan İnkişafı İndeksi 0,713-dür. Orta insan ömrü 71 ildir, kamillik faktoru 2,48-dir, adambaşına düşən ÜDM 11000 ABŞ dollarıdır, adambaşına istehlak olunan enerji isə 1980 kilovoltdur.

Naxçıvan Dövlət Universitetində kitab geniş müzakirələrdən keçdi. Təqdimatı Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü, professor Saleh Məhərrəmov aparırdı. Müzakirələr zamanı universitetin Ümumi riyaziyyat kafedrasının professoru Məhəmməd Hacıyev, Fəlsəfə və sosial iş kafedrasının müdiri Novruzəli Rəhimov, tələbələrdən Zeynəb Məmmədova çıxış edərək kitabın məziyyətlərindən danışdılar. Qeyd olundu ki, təqdim olunan bu kitab müasir iqtisadi, sosial və fəlsəfi təlimlərin əsas tədqiqat obyekti olan inkişaf yollarından bəhs edir. Kitabda tərəqqinin mahiyyəti, şərtləri və meyarları haqqında danışılır.

*– Bəs Naxçıvan Dövlət Universitetində hansı mövzular üzrə mühazirələr oxudunuz? Bu mühazirələr auditoriya tərəfindən necə qarşılandı?*

– Səfərim çərçivəsində hər gün Naxçıvan Dövlət Universitetində mühazirələr oxudum. Birinci gün mühazirə “Təhsilin problemləri” mövzusunda oldu. Bu mühazirədə, əsasən, təhsilin fəlsəfəsindən söhbət getdi. Təhsil prosesinin obyekti və subyekti kimdir? Sovet təhsil sistemi ilə müasir təhsil sistemindən, mühazirə dərslərinin seminar və laboratoriya dərslərindən fərqi nədir? Belə suallara cavab axtarıldı.

Bu gün bizim təhsil sistemimizdə, xüsusilə Bakı şəhər məktəblərində müəllimlərin 80 faizi qadındır. Bu, ilk baxışda problemli görünmür. Amma dərindən yanaşdıqda ciddi məsələlər ortaya çıxır. Diqqət yetirmək lazımdır. Allah canlıları belə yaradıb ki, liderlik keyfiyyəti yalnız erkək cinslərə məxsusdur. Əgər kişi müəllimlər məktəbi tərk edirsə, təhsil müəssisəsi qadınların ixtiyarına qalırsa, deməli, bir çox gənclərimizin liderlik keyfiyyəti aşınacaqdır. Bu gün təhsil nazirimiz çalışır ki, kişi müəllimləri məktəblərə qaytarsın.

Ümumiyyətlə, təhsilin inkişafı hər bir dövlət üçün vacibdir. Çünki dövlətin gələcəyi elm və təhsildən asılıdır. Burada ulu öndər Heydər Əliyevin müdrik kəlamını xatırlatmaq istəyirəm: ***“Bizim dövlətin gələcək taleyi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılıdır”.***

Növbəti gün isə mühazirənin mövzusu “Tərəqqinin fəlsəfəsi” idi. Bu mühazirə zamanı, təxminən, 40 slayd nümayiş etdirdim. Bu mühazirədə kamillik əmsalı və onun metodologiyasına geniş yer verdim. Kamillik əmsalı işığında dünya dövlətlərinin qlobal iqtisadi, siyasi və mədəni inkişafına nəzər salındı. Kamillik faktoruna görə, dünya dövlətləri təsnifata bölündü və göstərildi ki, çox inkişaf etmiş dövlətlər üçün kamillik faktoru 6-dan böyükdür. İnkişaf etməkdə olan ölkələrdə bu faktor 2-dən böyük, 6-dan kiçikdir. Geri qalmış dövlətlərdə bu faktor 2-dən kiçikdir. Sonra inkişaf etməkdə olan dövlətlərin inkişaf etmiş dövlətlərə çevrilmələrinin zəruri və kafi şərtlərini dinləyicilərin diqqətinə çatdırdım.

Üçüncü gün “Tərəqqi, texnologiya və elmin vəhdəti” mövzusu ətrafında təqdimat etdim. Müsəlman – İslam ölkələrinin elmdə geri qalmasının səbəbləri araşdırıldı. Müasir cəmiyyətlərin elm, təhsil və yüksək texnologiyaya əsaslanan innovasiyalı iqtisadiyyat dövrünə daxil olmaları vurğulandı. Bu, elmin, təhsilin, iqtisadiyyatın əlaqəsinin yeni bir fəlsəfə əsasında öyrənilməsini tələb edir. Keçid dövrünün yaratdığı problemlər səbəbindən bu problemlər MDB məkanında lazımınca öyrənilməyib. Belə dövrlərdə, adətən, üzdə olan ağrılı problemlər diqqət mərkəzinə çəkilir, dərin və köklü problemlər kölgədə qalır.

Müasir dövrün bu çağırışına cavab vermək üçün elm və təhsil həm formaca, həm də məzmunca ciddi dəyişməli, yeniləşməli və innovasion iqtisadiyyata təsiri aydın təsəvvür edilməlidir.

*– Bəs “Mikroelektronika və nanoelektronika” və “İdarəetmənin fəlsəfəsi” mövzusunda olan mühazirələrdə hansı məsələlər öz əksini tapırdı?*

– Naxçıvan Dövlət Universitetində dəqiq elm fakültələrinin müəllim və tələbələrinə “Mikroelektronika və nanoelektronika” mövzusunda təqdimat etdim. Son 100 ildə bu sahədə qazanılmış uğurlara geniş yer verdim.

Beşinci gün təqdimatın mövzusu “İdarəetmənin fəlsəfəsi” oldu. “Kamilləşən düşüncə”də bu problem kamillik faktoru işığında araşdırılmışdır və yeni nəticələr alınmışdır. Dövlət maşınının konstruksiyası diqqət mərkəzinə çəkilmişdir. Göstərilmişdir ki, firavan həyatın qurulmasında ÜDM qiyməti zəruridir, ancaq kafi deyildir. Kafilik şərti mədəniyyətdən keçir. Misal olaraq Avstraliya və Ekvatorial Qvineyanı göstərmək olar. Avstraliyada insanlar firavan yaşayır. Ekvatorial Qvineyada həyat bərbaddır.

Naxçıvan Muxtar Respublikasının qlobal sosial-iqtisadi göstəricilərinin orta Azərbaycan göstəricilərindən çox olması məlumdur. Düşüncəmə görə, Naxçıvanın bu göstəriciləri inkişaf etmiş Qərb dövlətlərinin göstəricilərinə yaxındır. Belə nəticəyə gəlməyimin əsas səbəbləri aşağıdakılardır:

Qərbdə olduğu kimi, Naxçıvanda da qanunların aliliyi və ədalət ciddi qorunur; Qərb dövlətləri qənaətcillik prinsipi ilə işləyir. Naxçıvanda da belədir. Misal üçün, işıqlanma üçün ancaq közərmə lampalarından istifadə edilmir; Naxçıvanda ictimai mənafe şəxsi mənafedən üstün tutulur. Əminəm ki, Naxçıvanda korrupsiya indeksi Qərb dövlətləri səviyyəsindədir; Qərbdə olduğu kimi, Naxçıvanda da ətraf mühit qorunur, hava, su təmizdir; inkişaf etmiş Qərb dövlətlərində orta yaş 78 ildən yuxarıdır. Bu göstəricinin Naxçıvanda 75-dən çox olduğunu söylədilər; heç kəs yolu qırmızı işıqda keçmir və sükan arxasında oturan hər kəs qoruyucu kəmərdən istifadə edir; NDU-nun rəhbərliyindən eşitdim: “nə zaman ki bizim tələbələr kitabxanaya növbəyə duracaqlar, o zaman biz işimizdən razı qalacağıq”. Amal yüksəkdir, hədəf aydındır; naxçıvanlılar da qərblilər kimi problemin üzərinə gedirlər, problemdən yan keçmirlər.

Nəticə olaraq deyim ki, mühazirələrlə bağlı müəllimlərin çıxışları və auditoriyanın alqışları təqdimatların maraqlı olmasından xəbər verirdi. Həm mühazirələr, həm də təqdimatlar yüksək səviyyədə təşkil olunmuşdu. Buna görə də muxtar respublikanın, o cümlədən Naxçıvan Dövlət Universitetinin rəhbərliyinə öz minnətdarlığımı bildirirəm.

# Seçki marafonu

Bələdiyyə seçkiləri – 2014

**23 dekabr 2014-cü il Azərbaycan Respublikasında bələdiyyə seçkiləri günüdür.**

**Hörmətli seçicilər!**

Bələdiyyə üzvlüyünə namizədlərin, qeydə alınmış namizədlərin, namizəd irəli sürmüş və ya namizədi qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının (bundan sonra – namizədlərin) seçkilərlə əlaqədar fəaliyyətlərinin maliyyələşdirilməsi üçün seçki fondları yaradılır.

**Bələdiyyə üzvlüyünə namizədlərin seçki fondları aşağıdakı pul vəsaiti hesabına formalaşa bilər:**

- əhalisi 99.999-dan çox olan ərazidə 10 min manatdan, əhalisi 49.999-dan çox olan ərazidə 7 min 500 manatdan, əhalisi 19.999-dan çox olan ərazidə 5 min manatdan, əhalisi 9.999-dan çox olan ərazidə 2 min 500 manatdan, əhalisi 4.999-dan çox olan ərazidə 1 min 250 manatdan, əhalisi 4.999-dan az olan ərazidə 750 manatdan çox olmamaq şərti ilə ***bələdiyyə üzvlüyünə namizədlərin xüsusi vəsaiti;***

- əhalisi 99.999-dan çox olan ərazidə 7 min 500 manatdan, əhalisi 49.999-dan çox olan ərazidə 5 min manatdan, əhalisi 19.999-dan çox olan ərazidə 3 min 750 manatdan, əhalisi 9.999-dan çox olan ərazidə 2 min 500 manatdan, əhalisi 4.999-dan çox olan ərazidə 1 min 250 manatdan, əhalisi 4.999-dan az olan ərazidə 500 manatdan çox olmamaq şərti ilə ***bələdiyyə üzvlüyünə namizədləri irəli sürmüş siyasi partiyaların, siyasi partiyalar bloklarının vəsaiti;***

- əhalisi 99.999-dan çox olan ərazidə 10 min manatdan, əhalisi 49.999-dan çox olan ərazidə 7 min 500 manatdan, əhalisi 19.999-dan çox olan ərazidə 3 min 750 manatdan, əhalisi 9.999-dan çox olan ərazidə 2 min 500 manatdan, əhalisi 4.999-dan çox olan ərazidə 1 min 250 manatdan, əhalisi 4.999-dan az olan ərazidə 750 manatdan çox olmamaq şərti ilə ***hüquqi şəxslərin könüllü ianələri.***

**Bələdiyyə üzvlüyünə namizədlərin maliyyə fondu məbləğinin yuxarı həddi əhalisi 99.999-dan çox olan ərazidə 50 min manatdan, əhalisi 49.999-dan çox olan ərazidə 37 min 500 manatdan, əhalisi 19.999-dan çox olan ərazidə 25 min manatdan, əhalisi 9.999-dan çox olan ərazidə 12 min 500 manatdan, əhalisi 4.999-dan çox olan ərazidə 7 min 500 manatdan, əhalisi 4.999-dan az olan ərazidə 5 min manatdan çox ola bilməz.**

**Namizədin irəli sürülməsi barədə dairə seçki komissiyasına bildiriş təqdim edildikdən sonra 5 gün müddətində namizədin qeydiyyatı üçün zəruri olan seçici imzalarının yığılmasına azı 24 saat qalmış xüsusi seçki hesabı açılmalıdır.**

Xüsusi seçki hesabının açılması üçün namizəd və ya onun səlahiyyətli nümayəndəsi aşağıdakı sənədləri müvafiq banka təqdim etməlidir:

- namizəd özü və ya seçicilərin təşəbbüs qrupu tərəfindən irəli sürüldükdə:

- xüsusi seçki hesabının açılması üçün ərizə;

- xüsusi seçki hesabının açılması üçün müraciət edənin şəxsiyyətini təsdiq edən sənəd;

- Seçki Məcəlləsinin 53.2-ci maddəsinə uyğun olaraq tərtib edilmiş və müvafiq seçki komissiyasına təqdim olunmuş bildirişin təsdiq edilmiş surəti;

- Seçki Məcəlləsinin 53-cü maddəsinin tələbinə uyğun tərtib edilmiş bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülmüş şəxsin məhkumluğuna, vətəndaşlığına və başqa dövlətlər qarşısında öhdəliyinə dair məlumatlar, habelə bələdiyyə üzvü seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətinə xitam verəcəyi barədə öhdəliyi göstərilmiş ərizə;

- namizədin səlahiyyətli nümayəndəsinin (əgər səlahiyyətli nümayəndə təyin edilibsə) notariat qaydasında rəsmiləşdirilmiş vəkalətnaməsi;

- notariat qaydasında təsdiq edilmiş imza nümunəsi vərəqəsi (xüsusi seçki hesabı üzrə əməliyyat aparan şəxsin).

**Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bələdiyyələrə namizədliklərini irəli sürən vətəndaşlar xüsusi seçki hesabını yalnız "Kapital Bank" ASC-nin muxtar respublikada fəaliyyət göstərən filiallarında açmalıdırlar.**

Seçki fondunda olan vəsaitə dair sərəncam vermək hüququ həmin fondu yaradan namizədə məxsusdur. Yəni seçki fondlarında olan vəsaitlər təyinatlı məqsəd daşıyır və ***bu vəsaitdən yalnız aşağıdakı məqsədlər üçün istifadə edilə bilər:***

- namizədlərin irəli sürülməsinin müdafiəsi üçün imzaların toplanmasına yönəlmiş təşkilati-texniki tədbirlərin maliyyə təminatı, habelə seçici imzalarının toplanması üçün müvafiq şəxslərin haqqının ödənilməsi;

- seçkiqabağı təşviqatla bağlı işlərin, habelə informasiya və məşvərət xidmətlərinin dəyərinin ödənilməsi;

- seçki kampaniyasının keçirilməsi ilə əlaqədar hüquqi şəxslərin və vətəndaşların bilavasitə yerinə yetirdikləri digər işlərin dəyərinin ödənilməsi ilə bağlı xərclər.

Namizədlər səsvermə gününədək Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada seçki fondlarının hesablarına köçürülmüş pul vəsaitindən istifadə edirlər.

**Namizədlərə seçkiqabağı təşviqat fəaliyyəti və imzaların yığılması üçün seçki fondlarına daxil olan vəsaitdən başqa, digər pul vəsaitindən istifadə etmək qadağandır.**

Müvafiq seçki komissiyasında qeydə alınmamış namizədin yekun maliyyə hesabatı təqdim edilənədək seçki fondunun xərclənməmiş pul vəsaitləri (göndərilmə xərclərinin çıxılması şərti ilə) köçürülən ianələrin məbləğlərinin proporsional nisbətinə uyğun olaraq, ianəçi vətəndaşlara və hüquqi şəxslərə qaytara bilər. Qeydə alınmamış namizəd və ya namizədi qeydə alınmamış siyasi partiya bu hüquqdan istifadə etmədikdə xərclənməmiş pul vəsaiti müvafiq olaraq dövlət və ya bələdiyyə büdcəsinə köçürülür.

Namizədlərin seçki fondlarına könüllü ianə ayırmaq, yaxud natura şəklində və ya xidmət göstərilməsi yolu ilə yardım etmək aşağıdakılara qadağan edilir:

- xarici dövlətlərə və xarici hüquqi şəxslərə;
- xarici vətəndaşlara;
- vətəndaşlığı olmayan şəxslərə;
- 18 yaşına çatmamış vətəndaşlara;
- seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan vəziyyətə görə Azərbaycan Respublikasının hüquqi şəxsinin nizamnamə kapitalında xarici dövlətlərin və xarici hüquqi şəxslərin, xarici vətəndaşların və 18 yaşına çatmamış vətəndaşların iştirak (mülkiyyət) payı 30 faizdən çox olarsa, Azərbaycan Respublikasının hüquqi şəxslərinə;
- beynəlxalq təşkilatlara və beynəlxalq ictimai hərəkatlara;
- dövlət hakimiyyəti orqanlarına və bələdiyyə qurumlarına;
- dövlət, bələdiyyə təşkilatlarına və idarələrinə;
- seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan vəziyyətə görə nizamnamə kapitalında dövlətin və ya bələdiyyənin iştirak payı 30 faizdən artıq olan hüquqi şəxslərə;
- hərbi hissələrə;
- xeyriyyə təşkilatlarına, dini birliklərə, idarələrə və təşkilatlara;
- aşağıdakı məlumatlardan hər hansı birini göstərməyən anonim ianə köçürənlərə (vətəndaş üçün – soyadını, adını, atasının adını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədinin seriyasını, nömrəsini, verilmə tarixini, yaşayış yerinin ünvanını, doğum tarixini, hüquqi şəxs üçün – vergi ödəyicisinin eyniləşdirmə nömrəsini, adını, qeydiyyat tarixini, bank rekvizitlərini, nizamnamə kapitalında dövlətin və ya bələdiyyə payının olmasını, olduğu halda miqdarını, nizamnamə kapitalında xarici kapitalın pay miqdarını göstərməyənlərə və ya qeyri-düzgün göstərənlərə).

Namizədin seçki fonduna könüllü ianələr rabitə şöbələri və ya bank-kredit təşkilatları vasitəsi ilə ianəçinin soyadı, adı, atasının adı, doğum tarixi və yaşayış yerinin ünvanı göstərilməklə şəxsiyyət vəsiqəsi, yaxud onu əvəz edən sənədin təqdim edilməsi əsasında yalnız Azərbaycan Respublikasının vətəndaşlarından qəbul edilir.

Hüquqi şəxslərin könüllü ianələri müvafiq hüquqi şəxsin nizamnamə kapitalında dövlət və ya bələdiyyə kapitalının, xarici kapitalın olub-olmaması və ya payı qeyd edilməklə, onun adı, qeydiyyat tarixi, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, bank rekvizitləri göstərilməklə pul vəsaitinin namizədin seçki fonduna nağdsız köçürülməsi yolu ilə qəbul edilir.

Vətəndaşların və hüquqi şəxslərin könüllü ianələri xüsusi seçki hesabına rabitə şöbələri və ya bank-kredit təşkilatları vasitəsi ilə müvafiq ödəniş sənədi alındıqdan sonra növbəti bank günündən gec olmayaraq köçürülür. Bu halda nağdsız ödənişin həyata keçirilməsinin ümumi müddəti 2 gündən artıq ola bilməz.

**Namizəd və ya siyasi partiya anonim köçürülən ianələr istisna olmaqla, hər hansı ianəni onu verən şəxsə qaytarmaq hüququna malikdir.**

Namizədlərin seçki fondlarına ianələr buna hüququ olmayan vətəndaşlardan və ya hüquqi şəxslərdən daxil olubsa, yaxud Seçki Məcəlləsində nəzərdə tutulmuş məbləğdən artıq köçürülübsə, ianənin xüsusi hesaba daxil olduğu gündən sonrakı 10 gün müddətində namizəd ianəni bütünlüklə və ya onun müəyyənləşdirilmiş yuxarı həddi aşan hissəsini geri qaytarmasının səbəbini göstərməklə və göndərilmə xərclərini çıxmaqla ***ianəçiyə qaytarmalıdır.***

**Anonim ianələr xüsusi seçki hesabına daxil olduğu gündən sonra 10 gün müddətində namizəd tərəfindən dövlət büdcəsinə köçürülür.**

Vətəndaşlar və hüquqi şəxslər namizədin, qeydə alınmış namizədin irəli sürülməsinə və seçilməsinə yalnız müvafiq seçki fondlarına ianə köçürmək yolu ilə yardım edə bilərlər.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası***

## Görmə məhdudiyyəti olan şəxslər arasında brayl yazı müsabiqəsi keçirilib

*Son illər muxtar respublikamızda görmə məhdudiyyəti olan şəxslərin reabilitasiyası və sosial müdafiəsinin gücləndirilməsi, onların cəmiyyətə inteqrasiyası istiqamətində əsaslı tədbirlər həyata keçirilib.*

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq, 13 noyabr – Beynəlxalq Gözdən Əlillər Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən görmə qabiliyyəti məhdud şəxslərin iştirakı ilə tədbirlər təşkil edilir.

Noyabrın 12-də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində növbəti tədbir – görmə məhdudiyyəti olan şəxslər arasında brayl yazı müsabiqəsi keçirilib. Müsabiqədə bu kateqoriyadan olan 8 nəfər iştirak edib.

Əsas məqsəd bu kateqoriyadan olan şəxslərə qayğının artırılması, onların bacarıq və qabiliyyətini üzə çıxarmaqla onlarda özünəinam hissi yaratmaq idi.

Sonda münsiflər heyətinin rəyinə əsasən, ilk üç yerə layiq görülmüş müsabiqə iştirakçılarına mükafatlar, digər iştirakçılara isə həvəsləndirici hədiyyələr təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## İnstitutun komandası birinci yerə layiq görülüb

*10-17 noyabr – beynəlxalq tələbə-gənclər həftəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin şən və hazırcavablar klubları arasında dünən Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində müsabiqə keçirilib.*



Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən müsabiqədə ali və orta ixtisas təhsili müəssisələrinin 4 komandası mübarizə aparıb. Hər bir komanda bir-birindən maraqlı səhnəciklər nümayiş etdirib. Müsabiqəyə dəvət olunmuş münsiflər heyəti tərəfindən komandaların çıxışları diqqətlə izlənilib və qaliblər müəyyən olunub. Nəticəyə əsasən, Naxçıvan Müəllimlər İnstitutunun komandası birinci yerə layiq görülüb. Naxçıvan Dövlət Texniki Kollecinin komandası ikinci, Naxçıvan Tibb Kollecinin komandası isə üçüncü olub.

Qeyd edək ki, qaliblər ayın 17-də Gənclər Mərkəzində təşkilatçılar tərəfindən diplom və qiymətli hədiyyələrlə təltif olunacaqlar.

## Naxçıvanlı idmançı dünya çempionu oldu

Ötən gün Naxçıvan idmançılarının uğuruna daha biri əlavə olunub. Belarusun paytaxtı Minsk şəhərində MMA döyüş növü üzrə keçirilən dünya birinciliyində ölkəmizi təmsil edənlər sırasında Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının idmançısı da çıxış edib. +93 kiloqram çəki dərəcəsində mübarizə aparan həmyerlimiz İlkin Səfərov qazandığı uğurla hamını sevindirib. Belə ki, İlkin bütün rəqiblərini rinqdə məğlub edərək dünya çempionu adını qazanıb.

Birinciliyin sonunda həmyerlimizə kubok, diplom və qiymətli hədiyyələr təqdim olunub.

## Şahbuzda rayon birinciliyi

Dünən Şahbuz rayonunda 12 Noyabr – Konstitusiya Günü münasibətilə rayonun ümumtəhsil məktəblərinin komandaları arasında yüngül atletika üzrə rayon birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına əsasən, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin birgə təşkil etdiyi birincilikdə 60-dan çox məktəbli qüvvəsini sınayıb.

Yarışın yekun nəticələrinə görə, Ayrınc kənd tam orta məktəbinin komandası birinciliyin qalibi adını qazanıb. Şahbuz şəhər 2 nömrəli tam orta məktəbin komandası ikinci, Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin komandası isə üçüncü olub.

Sonda qaliblərə təşkilatçılar tərəfindən kubok və diplomlar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 950